# Vəndam qəsəbəsində yeni məktəb binası istifadəyə verilib

Dekabrın 25-də rayonun Vəndam qəsəbəsində Hikmət Rəşidov adına 2 nömrəli tam orta məktəbin yeni inşa olunan binasının açılış mərasimi keçirilib.



Açılış mərasimindən əvvəl Təhsil naziri Ceyhun Bayramov və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək ulu öndərin xatirəsini ehtiramla yad ediblər.

Açılış mərasimində Təhsil naziri Ceyhun Bayramov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, rayontəhsil şöbəsinin müdiri Arifə Bayramova, ziyalılar, ictimaiyyət nümayəndələri və məktəbin kollektivi iştirak ediblər.

Açılışdan sonra nazir və mərasim iştirakçıları binada yaradılmış şəraitlə yaxından tanış olublar.

Bildirilib ki, ikimərtəbəli, 360 şagirdyerlik yeni məktəb binasında 15 sinif otağı, kimya, fizika və biologiya laboratoriyaları, məktəbəqədər, hərbi hazırlıq, tibb, kompüter, texnologiya otaqları, 162 yerlik akt zalı, 100 yerlik yeməkxana, kitabxana, idman zalı yerləşir. Məktəb binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri quraşdırılıb.

Hazırda məktəbdə 360 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 51 müəllim məşğul olur. 2018-2019-cu tədris ilində məktəbi bitirən məzunlardan 14 nəfər ali məktəblərə qəbul edilib.

Məktəblə tanışlıqdan sonra Təhsil naziri Ceyhun Bayramov məktəbin akt zalında gənc müəllimlərlə görüşüb.

**"Qəbələ"**






# Yeni subsidiya mexanizminə keçidlə bağlı tədbir

***Yeni subsidiya mexanizminə keçidlə bağlı Qəbələdə maarifləndirici tədbir keçirilib.***

***Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev, Kənd Təsərrüfatı Nazirliyi Aparatının nümayəndələri, rayon icra hakimiyyətinin məsul işçiləri, icra nümayəndələri, bələdiyyə sədrləri və fermerlər iştirak ediblər.***



Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə genişmiqyaslı abadlıq-quruculuq, yenidənqurma işləri aparıldığını və əsaslı infrastruktur layihələri həyata keçirildiyini bildirib.



Ölkədə məqsədyönlü islahatların həyata keçirildiyini qeyd edən rayon İcra hakimiyyətinin başçısı kənd təsərrüfatının inkişafına geniş dövlət dəstəyi mövcud olmaqla dövlətin diqqət və qayğısı nəticəsində son illərdə rayonda taxılçılıq, meyvəçilik, baramaçılıq, tütünçülük və heyvandarlığın daha da inkişaf etdiyini qeyd edib.

Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev çıxışında deyib ki, bu il aqrar xidmətlərin elektronlaşdırılması istiqamətində mühüm addımlar atılıb. Kənd Təsərrüfatı Nazirliyi 2019-cu ildə əsas fəaliyyət prinsiplərini - fermerlərə yaxınlıq, şəffaf və səmərəli idarəetmə və innovasiyaların tətbiqini özündə birləşdirən Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) layihəsini həyata keçirməyə başlayıb. 2020-ci ildən aqrar subsidiyalar məhz elektron sistem üzərindən, fermerlərin bəyanları əsasında veriləcək.

Nazir müavini qeyd edib ki, EKTİS sisteminin tətbiqi Azərbaycanda subsidiyaların verilməsində şəffaflığı tam təmin edəcək, aqrodataların toplanmasına, geniş təhlilinə imkan verəcək.

Görüşdə aqrar sektora dövlət dəstəyinin yeni mexanizmi, Aqrar Subsidiya Şurası tərəfindən müxtəlif məhsullar üzrə müəyyənləşmiş əmsallar, fermerlərə veriləcək subsidiyaların aqrar sahənin inkişafına göstərəcəyi müsbət təsir ətrafında fikir mübadiləsi aparılıb, EKTİS-in tətbiqi ilə əlaqədar yerli icra orqanlarının nümayəndələrinin, bələdiyyə təmsilçilərinin və fermerlərin sualları cavablandırılıb.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Ədliyyə nazirinin müavini Qəbələdə vətəndaşları qəbul edib

***Azərbaycan Prezidenti İlham Əliyevin insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarının icrası Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır.***

Dekabrın 18-də Ədliyyə nazirinin müavini Toğrul Musayev tərəfindən Qəbələ Mədəniyyət Mərkəzində vətəndaşların qəbulu keçirilib.

Tədbirdən əvvəl ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram ifadə olunub.



Qəbulda vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri diqqətlə dinlənilib, qaldırılan məsələlərlə bağlı nazirliyin qəbulda iştirak edən məsul işçilərinə və aidiyyəti qurumlarına tapşırıqlar verilib.

Rayon sakinləri vətəndaşların bölgələrdə qəbulu və müraciətlərinə baxılması ilə bağlı Azərbaycan Prezidenti tərəfindən yaradılmış şəraitdən razılıqlarını ifadə ediblər.

Səfər çərçivəsində, həmçinin Qəbələ "ASAN xidmət" mərkəzində ədliyyə qurumlarının fəaliyyəti və iş şəraiti ilə tanışlıq olub, vətəndaşlara daim qayğılı münasibət göstərilməsi, məmnunluğun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl edilməsi vurğulanıb.

**«Qəbələ»**
**İlkin Vəlizadə (foto).**